# Akademik yazida yarana bilən səhvlər və onların aradan qaldırılması yolları

**Mirsadiq Mircəfər oğlu Cəfərov**
*Azərbaycan Dillər Universiteti*
**E-mail:** mirsadiq.cafarov@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. Ç.M. Qaraşarlı,
filol.ü.f.d., dos. K.A. Cəfərova

**Açar sözlər:** akademik yazı, paraqraf, səhvlər, durğu işarələri, vergül, uzlaşma
**Ключевые слова:** академическое письмо, абъзац, ошибки, пункьтуасия, запятая, согласная
**Key words:** academic writing, paragraph, mistakes, punctuation marks, comma, sequence

Akademik yazı univeristetlərdə, kolleclərdə müəllimlər, professorlar, tələbələr üçün təşkil olunmuş yazı növüdür. Düzgün yazılmış paraqrafın vacib atributu bütövlükdür. Bütövlük o deməkdir ki, paraqraf əvvəldən sonadək bir və yalnız bir ideyanı müzakirə edir. Məsələn, əgər bizim yazdığımız paraqraf orta ölçülü bir maşına sahiblənməyin üstünlükləri ilə bağlıdırsa, müzakirəni yalnız həmin məsələ üzrərində aparmaq lazımdır. Çatışmazlıqlardan danışmaq olmaz. Həmçinin, hər paraqrafda yalnız bir üstünlükdən danışmaq vacibdir. Əgər biz bir başqa üstünlükdən söhbət açsaq, yeni paraqrafa keçməliyik. Bəzən bir paraqrafda eyni ideyanın bir neçə aspektini (bir şərtlə ki, onlar bir-birilə əlaqələndirilmiş olsun) müzakirə etmək olur. Misal üçün, eyni bir paraqrafda biz benzinə qənaətdən və az miqdarlı təmir xərclərindən danışa bilərik, çünki bu fikirlər bir-birilə çox bağlıdır. Lakin biz eyni paraqrafda qaza qənaətlə daha asan maşın saxlama yerindən bəhs edə bilməyəcəyik, çünki onlar sıx əlaqəli fikirlər deyillər.

Düzgün yazılmış paraqrafın əsas elementlərindən biri axıcılıqdır (latınca coherence). “Coherence” sözü latın sözü olub, "tutarlı olmaq" deməkdir. Yazıda axıcılıq üçün cümlələr bir-birilə əlaqəli olmalıdır; bu, o deməkdir ki, bir cümlədən digərinə keçid məntiqi və axıcı olmalıdır. Heç bir ani keçidlərə yol verilməməlidir. Hər bir cümlə növbəti cümləyə doğru rahatca axmalıdır.

Qeyd etmək lazımdır ki, akademik yazı zamanı tələbələr çox vaxt müəyyən səhvlər edirlər. Çalışmaq lazımdır ki, bu səhvlər aradan qalxsın. Əgər tələbə akademik yazıda tez-tez səhvlər edirsə bu zaman o, aşağıdakıları bilməlidir:

**Akademik yazı zamanı yaranan səhvlər aşağıdakı qruplara bölünür:**

1) Qrammatik səhvlər
2) Durğu işarələri
3) Run-on cümlələr
4) Zəif və ya səhv tezis cümləsi

**I. Qrammatik səhvlər**

1. Mübtəda və xəbərin uzlaşmaması

Mübtəda və xəbər kəmiyyətə görə uzlaşmalıdır. Tələbələr tez-tez akademik yazı zamanı səhv edirlər. Əgər mübtəda təkdə olarsa xəbər də təkdə olmalıdır. Mübtəda cəmdə olarsa xəbər də cəmdə olmalıdır.

**Məsələn, Yanlış: These recipes is good for beginning chefs.**
**Doğru: These recipes are good for beginning chefs.**

Komanda, təşkilat və şirkətlər adları olarsa, bu zaman xüsusilə mübtəda və xəbər uzlaşmasına diqqət yetirmək lazımdır.

**Məsələn, Yanlış: The Detroit Tigers are a Major League baseball team.**

**Doğru: The Detroit Tigers is a Major League baseball team.**

Bu cümlədə mübtəda komanda adı olduğuna və tək isim kimi götürüldüyünə görə xəbər də təkdə olmalıdır. Şagirdlərin ən çox etdiyi səhvlərdən biridir.

2. Cümlədə iki inkarın işlənməsi

İnkar cümlədə iki inkarın işlənməsi düzgün deyil. İki neqativ sözü bir cümləyə qoymaq düzgün deyil, çünki iki neqativ sözün işləndiyi cümlə pozitiv cümləyə çevrilir.

**Məsələn, Yanlış: Ann can't hardly get up in the morning.**

**Doğru: Ann can hardly get up in the morning.**

3. Məsdər və "to" ayrı işlədilməsi

İngilis dilində məsdər "to" ilə işlədilir. "to" ilə məsdərin arasına söz daxil etmək akademik yazıda səhv hesab edilir. Çünki "to" sözünün məsdər ilə əlaqəsi vardır.

**Məsələn, Yanlış: She tried to quickly finish the book before she had to leave.**

**Doğru: She tried to finish the book quickly before she had to leave.**

4. Uzlaşmanın pozulması

İlk növbədə ingilis dilində cümlədə isim və əvəzlik uzlaşmalıdır. Eləcə də əvəzlik də öz növbəsində əvəzliklə də uzlaşmalıdır. Tələbələrin ən çox etdiyi səhvlərdən biri uzlaşmadır.

**Məsələn, Yanlış: A student is free to express their opinion.**

**Doğru: A student is free to express his or her opinion.**

**Students are free to express their opinions.**

5. Zamanların uzlaşması

Cümlədə zamanı dəyişmək ən çox rast gəlinən yazı səhvidir. Əgər bir cümlə keçmiş zamanda olarsa digər cümləni indiki zamanda vermək olmaz.

**Məsələn, Yanlış: Who said writing is easy?**

**Doğru: Who said writing was easy? Or Who says writing is easy?**

6. To/too/two işlənməsi

Şagirdlər tez-tez bu 3 üç sözün yazılışı zamanı səhvlər edirlər. Çünki hər 3 söz eyni tələffüz olunur. Amma bunları qarışdırmaq düzgün deyil. Hər birinin özünün işlənmə məqamı var.

"To" feilin məsdər formasında istifadə edilir. Məsələn, to talk

"To" həmdə sözönüdür. "A2, ya2" mənasını verir.

"Too" həm zərf, həm də ədatdır. Mənası "həddən çox, həddən artıq" deməkdir.

"Two" 2 mənasını verən saydır.

**Məsələn, Yanlış: I'm to hot**

**It's time two go**

**He bought to cakes**

**Doğru: I'm too hot**

**It's time to**

**He bought two cakes**

7. "its" və "it's" işlənməsi

Apastrof "sahiblik, bir şeyə sahib olmağı göstərmək" üçün istifadə edilir. Amma "it's" deyilənə aid deyil, tələbələr tez-tez bunu səhv edirlər. "its" və "it's" tez-tez qarışdırılır. "İts" yiyəlik əvəzliyidir. "İt's" isə "it is" deməkdir.

**Məsələn, Yanlış: İts snowing outside**

**The sofa looks great with it's new cover.**

**Doğru: It's snowing outside**
**The sofa looks great with its new cover.**

8. İkili konstruksiya

Tələbələrin etdiyi səhvlərdən biridir. Akademik yazı zamanı cümlədə tez-tez keçid siqnallarından istifadə edilir. Keçid siqnalları yol hərəkəti işarələri kimidir; onlar bizə nə zaman irəli gedəcəyimizi, dönəcəyimizi, sürəti azaldacağımızı və dayanacağımızı deyir. Başqa sözlə desək, onlar bizim oxucumuza oxşar ideya (eynilə, və, üstəlik), zidd fikir(digər tərəfdən, lakin, əksinə olaraq), nümunə (məsələn, misal üçün), nəticə(buna görə də, nəticə olaraq) söylədiyimizi çatdırır. Keçid siqnalları paraqrafa axıcılıq verir, çünki onlar bizim oxucumuzu bir ideyadan digərinə yönəldir. Cümlədə eyni zamanda bir neçə keçid siqnalını işlətmək düzgün deyil.

**Məsələn, Yanlış: Since the legislation has passed, therefore we will have more nurse practitioners.**

**Bu cümlədə həm since, həm də therefore işlənməsi düzgün deyil.**

**Doğru: Since the legislation has passed, we will have more nurse practitioners.**

**The legislation has passed; therefore, we will have more nurse practitioners.**

9. Qaydasız feillərin səhv yazılışı

Tələbələr tərəfindən tez-tez edilən səhvlərdən biridir. Biz bilirik ki, feillər qaydalı və qaydasız olur. Qaydasız feillər də öz növbəsində kökündən dəyişilməklə düzəlir. Amma çox vaxt tələbələr qaydasız feillərin yazılışını səhv yazırlar.

**Məsələn, Yanlış: Mary loves to read, has ran for office and has an articulate way of telling it like it is.**

**Doğru: Mary loves to read, has run for office and has an articulate way of telling it like it is.**

10. "Lay" və "lie" feillərinin işlənməsi

Tələbələr tərəfindən tez-tez edilən səhvlərdən biridir. "Lay" təsirli feildir. Mənası "qoymaq" deməkdir. O, tamamlıq tələb edir. Indiki zamanda "lay", keçmiş zamanda isə "laid" olur.

**Məsələn, İndiki zaman: I lay the pencil on the table.**

**Keçmiş zaman: Yesterday I laid the pencil on the table.**

"Lie" feili isə təsirsiz feildir, mənası "yalan danışmaq", "uzanmaq", "yerləşmək" deməkdir. Özündən sonra tamamlıq tələb etmir. Indiki zamanda "lie", keçmiş zamanda isə "lay" olur.

**Məsələn, İndiki zaman: The Andes mountains lie between Acahile and Argentina.**

**Keçmiş zaman: The man lay waiting for an ambulance.**

**II. Durğu işarələrinin işlənməsi**

1. Tələblərin etdiyi səhvlərdən biri mürəkkəb cümlələrdə vergülün istifadə edilməməsidir. Amma bilmək lazımdır ki, mürəkkəb cümlələri bir-bir ilə bağlayarkən — but, for, and, or, yet, so — istifadə edilir və bu zaman qeyd olunan bağlayıcılardan əvvəl vergül qoyulur.

**Məsələn, Yanlış: The man jumped into a black sedan and he drove away before being noticed.**

**Doğru: The man jumped into a black sedan, and he drove away before being noticed.**

2) Tələbələrin etdiyi digər səhv isə cümlərin ortasında söz gələndə vergülün işlənmə qaydasıdır. Cümlənin ortasında söz, ifadə, əlavə gələrsə, bu zaman hər iki tərəfindən vergül qoyulur (inserter commas) (11).

**Məsələn, My uncle, however, refuses to quit smoking.**
**My father, on the other hand, has never smoked.**

3) Cümlədə edilən səhvlərdən bir də mübtəda və xəbər arasında, eləcə də sözönü ilə ismin arasında vergülün işlədilməsidir. Bu düzgün yazılış deyil.

**Məsələn, Yanlış: Happily, the waiters, sat down during a break.**
**On her way home from work, she bought a book at, the bookstore.**
**Doğru: Happily, the waiters sat down during a break.**
**On her way home from work, she bought a book at the bookstore.**

4) Akademik yazı zamanı edilən səhvlərdən biri də cümlənin əvvəlində vergülün düzgün işlədilməməsidir. Cümlənin əvvəlində söz, ifadə, sitat və budaq cümlə gələrsə ondan sonra vergül qoyulur (introducer commas).

**Məsələn, Yanlış: Therefore I plan to quit smoking.**
**"Stop smoking today" she advised.**
**Doğru: Therefore, I plan to quit smoking.**
**"Stop smoking today," she advised.**

5) Cümlənin axırında söz və ya ifadə gələrsə, o zaman ondan əvvəl vergül qoyulur.

**Məsələn, Yanlış: He appears to be in good health however.**
**Doğru: He appears to be in good health, however.**

6) Həmcins üzvlər zamanı tələbələr vergülü düzgün işlətmirlər. həmcins üzvlərdən sonra vergül qoyulur. Amma 2 həmcins söz varsa bu zaman "and" əvvel vergül qoyulmur. Məsələn, John speaks English, Spanish, French, and Creole.

**Məsələn, Yanlış: John speaks Mandarin, and Taiwanese.**
**Doğru: John speaks Mandarin and Taiwanese.**

Semi-colon - Nöqtəli vergül ( ; )

Nöqtəli vergül müstəqil müddəalara "and" və ya "but" kimi bir sıra koordinasiya bağlayıcıları ilə birlikdə qoşulub keçid üçün istifadə olunur. Nöqtəli vergül aşağıdakı nümunələrdəki kimi yaxından məna bağlılığı olan müstəqil müddəaları, birləşdimək üçün lazımdır:

**Abdominal exercises help prevent back pain; proper posture is also important.**
**The author made four recommendations; however, only one has been adopted so far.**

Tələbələr çox zaman cümlənin ortasında keçid siqnalları gələndə durğu işarələrindən, xüsusilə nöqtəli vergüldən səhv istifadə edirlər. Bu zaman cümlənin ortasında keçid siqnalları olanda əvvəl nöqtəli vergül, sonra isə vergül qoyulur.

**Məsələn, Yanlış: Skiing is dangerous nevertheless, millions of people ski.**
**Doğru: Skiing is dangerous; nevertheless, millions of people ski.**

**III. Run-on cümlələr**

Tələbələr akademik yazı zamanı run-on cümlələrdə durğu işarələrini səhv edirlər.

Run-on cümlələrdə aşağıdakı durğu işarələrindən istifadə edilir: 1) nöqtədən, 2) vergül+bağlayıcı, 3) nöqtəli vergül.

**Məsələn, Yanlış: She tried to sneak out of the house her mother saw her leaving.**
**He ran through the field as fast as he could all the while rain was soaking him to the bone.**
**Yusif is a sweet little boy he really loves animals.**
**Doğru: She tried to sneak out of the house, but her mother saw her leaving.**
**He ran through the field as fast as he could. All the while rain was soaking him to the bone.**
**Yusif is a sweet little boy; he really loves animals.**

**IV. Zəif tezis və ya səhv tezis cümləsi**

Tələbələrin akademik yazı zamanı tez-tez etdiyi səhvlərdən bir də tezis cümləsinin səhv yazılmasıdır. Biz bilirik ki, tezis cümləsi elmi yazı işinin əsas ideyasını təqdim edir. O, yazımızın konkret mövzusunu göstərir. O, əsas mövzunun yarım mövzularını sadalaya bilər və eyni zamanda struktur metodu barədə məlumat verir. O, girişin sonuncu cümləsinə çevrilir, yəni yekun cümləsi kimi yazıla bilər. Tezis cümləsini formalaşdırmazdan əvvəl biz mövzu üzrə bir qədər oxumalı və bizə lazım ola biləcək müxtəlif fikirləri dəstəkləyən konsepsiyalar, nəzəriyyələr və araşdırmalar barədə qeydlər götürməliyik. Bu qeydləri götürəndən və bunların qısa xülasəsini qurandan sonra mövzunu yekunlaşdıran və mövcud ədəbiyyatdan fikir, faktlar üzrə ziddiyyət və fərqli yanaşmaları nəzərə alan tezis yazmağa daha yaxın ola bilərik. Əgər biz düzgün qeydlər etmişiksə, tezis cümləmizi dəstəkləyəcək arqumentimizlə əlaqələndirmək üçün bizə yalnız paraqraflar arasına bağlayıcı cümlə lazım ola bilər. İstifadə etdiyimiz yanaşmadan asılı olmayaraq, yazımızın yaxşı struktura malik olması önəm daşıyır. Bu isə giriş paraqrafı ilə başlayır.

Tezis cümləsi yazarkən "bu yazı işi…-dən bəhs edəcək", "bu yazı işi…-dən söz açmağa hazırlaşırıq" tipli fikirlərdən uzaq olmaq lazımdır. Araşdırmaq niyyətimizi bəyan etməkdənsə, çalışmaq lazımdır ki, apardığımız təhlilin nəticəsini qeyd edə bilək. Cümlələrimizin konket olduğuna əmin olmalıyıq. Fikirlərimizin dəqiq və aydın olduğuna əmin olmalıyıq. Tezis cümləsi qısa, yalnız bir cümlədən ibarət olur. Elmi yazi işimizdəki iddiamızın reallığa əsaslandığına əmin olmalıyıq, əks halda o, mənasız səslənə bilər. Tezis cümləmizin əhəmiyyətinə, mövzu üzrə verə biləcəyi töhfəyə əmin olmaq lazımdır (11).

Ümumiyyətlə, bu gün ölkəmizdə həm orta, həm də ali məktəblərdə ingilis dilinin tədrisini yeni əsaslar üzərində qurmaq üçün müəyyən şərait yaradılmışdır. Ilk növbədə ünsiyyət məqsədi dedikdə akademik mühitdə həm akademik danışıq, həm də akademik yazı qaydalarının düzgün və məqsədəuyğun istifadəsi nəzərdə tutulur. Akademik yazı elmin və ali təhsilin ayrılmaz atributlarından biridir.

**Məqalənin aktuallığı.** Beynəlxalq ünsiyyət dili olan ingilis dili ölkəmizdə böyük əhəmiyyətə malik olmuşdur. Ali və orta ixtisas müəssisələrində akademik yazı vərdişlərini artırmaq baxımından məqaləni aktual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** Akademik yazı ölkəmizdə yetərincə tədqiq olunmadığı halda, məqalə elmi yenilik kimi qəbul oluna bilər.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə ali və orta ixtisas məktəblərində təhsil alan, akademik yazı vərdişlərinə yiyələnən tələbələr üçün praktik əhəmiyyətə malikdir.

## Ədəbiyyat

1. Əzimov B. Qloballaşmanın linqvistik əsasları, qlobal dil, beynəlxalq dil və milli anlayışlarının qarşılaşdırılması, Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, «Tədqiqlər» №1, «Nurlan» Nəşriyyat-Poliqrafiya Müəssisəsi, Bakı, 2008, s.312.

2. Brunton Mike, An account of ESP – with possible future directions, English for Specific Purposes Issue 3 (24), Volume 8, 2009, p.15.

3. Carolyn Barrat and et als. (2014). Writing Academic.

**М.М. Джафаров**

## Ошибки, которые могут возникнуть в академическом письме, и способы их устранения

### Резюме

В этой статье исследуются некоторые мысли академического письма. Поскольку этот предмет является новым в Азербайджане, его должны исследовать и анализировать учителя, которые преподают, и ошибки, которые могут быть сделаны учениками, например, эти ошибки – пунктуация, грамматические ошибки, повторяющиеся предложения и т. д., должны быть исправлено. Эта статья считается полезной для студентов высших и средних учебных заведений.

**M.M. Jafarov**

## Errors that can occur in academic writing and ways to eliminate them

### Summary

This article deals with some thoughts of academic writing. Since this subject is new in Azerbaijan, it should be researched and analyzed by the teachers who teach and the mistakes that can be made by the students, for example, these mistakes – punctuation, grammatical mistakes, repetitive sentences, etc., should be corrected. On this occasion, this article is considered to be useful for students in higher and secondary education.

**Redaksiyaya daxil olub:** 09.03.2021